# XRONİKA, RƏYLƏR, MƏLUMATLAR
# CHRONICAL, REWIEWS, INFORMATION
# ХРОНИКА, РЕЦЕНЗИИ, СООБЩЕНИЯ

## «Azərbaycan Arxeologiyası» jurnalı təbrik edir:

## AMEA müxbir üzvü, prof. *Vəli Hüseyn oğlu Əliyevə*

## Hörmətli Vəli müəllim!

"Azərbaycan Arxeologiyası" jurnalı Sizi - Azərbaycan arxeologiyasının görkəmli nümayəndəsini çoxsaylı oxucuları ilə birlikdə 80-illik yubileyiniz münasibəti ilə ürəkdən təbrik edir, Sizə möhkəm can sağlığı və Naxçıvan diyarının sirlərlə dolu arxeoloji cəngəlliklərində yeni yollar açmağı arzu edir.

Qoy böyük kəşflərinizin əks- sədası həmişə hər yana yayılsın və yaşasın!

## AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu Antik dövr arxeologiya şöbəsinin aparıcı elmi işçisi *Fazil Lətif oğlu Osmanova*

## Hörmətli Fazil müəllim!

"Azərbaycan Arxeologiyası" jurnalı Sizi, Azərbaycanın tanınmış albanşünas alimini, antik dövr tarix və mədəniyyətinin öyrənilməsində böyük töhfəsi olan görkəmli arxeoloqu həyatınızın əlamətdar günü, 80 illik yubileyiniz münasibəti ilə təbrik edir, Sizə möhkəm can sağlığı arzulayır.

**XXIX МЕЖДУНАРОДНАЯ НАУЧНАЯ КОНФЕРЕНЦИЯ "КРУПНОВСКИЕ ЧТЕНИЯ".** С 18 по 21 апреля 2016 года в столице Чеченской Республики городе Грозном прошли очередные XXIX "Крупновские чтения" – Международная научная конференция посвящённая памяти выдающегося советского археолога-кавказоведа, лауреата Ленинской премии, д.и.н, профессора Е. И. Крупнова. Темой конференции было "Изучение и сохранение археологического наследия народов Кавказа"




В форуме приняли участие исследователи из различных стран. Наряду с учеными из Грузии, Китая, Германии, Франции, Греции, городов Москва, Санкт-Петербурга и более 20 регионов Российской Федерации в работе конференции участвовали и ученые из Азербайджана.

Работа конференции проходила в одном из учебных корпусов Чеченского Государственного Университета, в актовом зале которого состоялось пленарное заседание. Секционные работы – слушанья и обсуждения докладов проводилась в различных аудиториях Университета.

Первым на пленарном заседании выступил член-корреспондент РАН Рауф Мунчаев с докладом "Вклад Е.И. Крупнова в изучение археологии, древней и средневековой истории и культуры Чечни". Р. Мунчаев дал всеобъемлющую оценку деятельности Крупнова в Чечне и на Кавказе в целом.

Следующий доклад на тему «Миграции ранних популяций гоминидов в свете новых палеолитических находок в Азербайджане» зачитал Азад Зейналов из Института археологии и этнографии НАНА. Доклад сопровождался презентацией, на которой демонстрировалась карта с указанием палеолитических местонахождений, обнаруженные на них каменные орудия труда, остатки окаменевшей фауны и вероятный миграционный путь ранних гоминид начиная почти с 2-х млн. лет назад.

На пленарном заседании были заслушаны еще два доклада: Сергея Кореневского из Института археологии РАН на тему "К вопросу о древнейших курганах Кавказа (V-IV тыс. лет до н.э.)", который также сопровождался слайдами и доклад Мусы Багаева, председателя Постоянного координационного совета "Крупновских чтений", главного научного сотрудника Центра аналитических исследований Академии Наук Чеченской Республики на тему "К проблеме изученности Алании как государства на Северном Кавказе".



Далее работа конференции проходила раздельно по четырем секциям: археология каменного века, эпохи ранней и средней бронзы, археология позднебронзового и раннежелезного века, археология сарматского времени и эпоха Великого переселения народов, археология средневековья.

На секции «Археология каменного века, эпохи ранней и средней бронзы» были заслушаны доклады азербайджанских ученых д.и.н. Туфана Ахундова и к.и.н. Азизы Гасановой.

В своём докладе "Исследование памятников "Муганского неолита" и "Лейлатепинской традиции" Т.Ахундов представил сводку проводимых им работ на памятниках Муганского региона Азербайджана с показом иллюстраций памятников и их материалов, кратко остановился на обосновании их культурной принадлежности и хронологии.



Большой интерес и широкую дискуссию вызвал доклад нашего специалиста по древней металлургии Азизы Гасановой на тему "Древний металлургиический очаг на Кавказе (новейшие исследования)". Она представила новейшие фактические данные, полученные при раскопках на поселении Алхантепе и результаты лабораторных исследований проводимых ею в течение последних лет. В результате своих работ А.Гасанова убедительно доказала, что поселение Алхантепе древнейший металлургический центр Кавказа, где металлурги выплавляли и изготовляли изделия из мышьяковой меди, серебра и свинца. Вопрос о сырьевой базе пока остался открытым.

К сожалению, последний день форума был омрачен. Резко ухудшилось самочувствие А. Гасановой. Оргкомитетом конференции на высоком республиканском уровне были оперативно мобилизованы медицинские службы г. Грозного. К сожалению, не смотря на все старания врачей, на рассвете 23 апреля она скончалась.

Результаты работы XXIX Международной научной конференции "Крупновские чтения" позволили подвести определённую черту под результатами проведенных к настоящему времени исследований и наметить перспективы на будущее. Было принято решение о проведении очередных XXX – "Крупновских чтений" в 2018 году в Карачаево-Черкесской Республике в городе Карачае.

***Азад Зейналов***
**Институт Археологии и Этнографии НАН Азербайджана**

**QAX RAYONUNUN XRİSTİAN ABİDƏLƏRİNƏ ELMİ SƏFƏR TURU.** Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Prezidenti yanında Bilik Fondu, Azərbaycan Milli Elmlər Akademiyası və Bakı Slavyan Universitetinin təşkilatçılığı ilə 23-24 aprel 2016-cı il tarixində «Azərbaycanın maddi-mədəni irsi - Alban Apostol kilsəsi Qafqazın ən qədim kilsəsidir» layihəsi çərçivəsində Qax rayonuna bir qrup alim və tələbənin elmi səfər turu keçirilmişdir.

Səfər proqramı üzrə ilk tədbir Qax rayon Tarix-Diyarşünaslıq Muzeyinin ziyarətindən ibarət olmuşdur. Direktor Mahir Qalib oğlu Əfəndi muzeyin yaradılması tarixi, eksponatları haqqında ətraflı və məzmunlu məlumat verdi. Məlum oldu ki, muzey 1981-ci ildə Allahverdi kilsə binasında (XIX əsr) cəmi 500-dək eksponatla fəaliyyətə başlamışdır. Hal-hazırda isə muzeydə Qax rayonunun 5000 illik tarixini əks etdirən 11000-dən çox əşya mühafizə edilir. Həmin əşyalar arxeoloji, etnoqrafik, numizmatik, elmi təbiyyət kolleksiyaları, fotomateriallar, təsviri və yazılı



məxəzlər kimi bölmələr əsasında sistemləşdirilmişdir. Muzeyin müasir havalandırma və işıqlandırma vasitələri ilə təchiz olunmasına böyük ehtiyac duyulur.

Muzeyi tərk edərək buradan Bilik Fondunun Qax rayon nümayəndəliyinin iqamətgahı olan Bilik Evinə yollandıq. Təmiz və səliqəli Bilik Evi müxtəlif iş otaqlarından və konfrans zalından ibarətdir. Konfrans zalında oturacaq yerlərinin sayının artırılması zəruridir.

Aprelin 23-də proqram üzrə nəzərdə tutulmuş son və əsas tədbir Heydər Əliyev Mərkəzində keçirilmiş «Kürmük alban məbədi - Azərbaycanın maddi-mədəni irsidir» mövzusunda «dəyirmi masa» oldu. Tədbiri Qax rayon İcra hakimiyyəti başçısının müavini Vəfa Heydərova açdı. İclasın moderatoru BBMM-nin baş məsləhətçisi Rəşad İlyasov tədbirin məqsəd və vəzifələrindən danışdı və buradaca «Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları» kitabının və habelə «Azərbaycanın maddi-mədəni irsi – Kürmük alban məbədi» bukletinin təqdimatını keçirdi. Kütləvi təbliğat üçün nəzərdə tutulmuş bukletin tirajının artırılması arzuediləndir. Tədbir Bakının müxtəlif elmi-təhsil qurumlarını təmsil edən alimlərin çıxışları ilə davam etdirildi. Sonda natiqlər iştirakçıların suallarını cavablandırdılar. «Dəyirmi masa» qarşısına qoyulmuş məqsədə nail oldu.

Turun ikinci günü - aprelin 24-də Qax rayonu ərazisində yerləşmiş 4 alban xristian abidəsinə baxış keçirildi.

Yeddi kilsə monastır kompleksi Ləkit-Kötüklü kəndi yaxınlığında yerləşmişdir. Kompleksə dini (2 bazilika tipli məbəd və 5 sövmə) və mülki tikililər daxildir. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, sövmələrin bir qrupunda qəbirlər yerləşmiş və həmin sövmələr mavzoley funksiyasını daşımışdır. Monastırı əhatə edən müdafiə divarının bir hissəsi qorunub saxlanılmışdır. Monastırın əsası V-VI əsrlərdə qoyulmuş, o XII əsrədək dini tikili kimi fəaliyyət göstərmişdir. Abidə movakanlara (müklərə) aiddir. Bu abidə kompleksini müşahidə edərkən belə bir nəticəyə gəldik ki, onun dağılması prosesi sürətlənmişdir. Yeddi kilsə təcili bərpa olunmalı abidələr siyahısına salınmalıdır.

Qum məbədi Qum kəndinin mərkəzi hissəsində, Qum çayının sahilində yerləşmişdir. Bu tikili üç nefli bazilika tipli məbədlər sırasına daxildir. Gürcü tədqiqatçıları, məsələn, D.L.Musxelişvili Qum bazilikası və Ləkit dairəvi məbədlərini VIII əsrin 40-cı illərində bu ərazidə İberiya hakimi Arçilin inşaat fəaliyyəti ilə əlaqələndirmişdir, başqa sözlə desək, ilk orta əsr gürcü abidələri kimi dəyərləndirmişdir. Lakin mütəxəssislərin əksəriyyətinin fikrincə, məbəd VIII əsrin 40-cı illərinə qədər artıq mövcud idi. Abidənin albanlara (movakanlara) aid olması şübhə doğurmur. Qum məbədi VII-VIII əsrlərdə inşa edilmişdir. Bu məbəd də yaxın zamanlarda bərpa olunmasa, onu dağılmaq təhlükəsi gözləyir.



Ləkit məbədi Ləkit kəndinin cənubundakı uçurumun kənarında yerləşir. Bu memarlıq tikilisi dairəvi, mərkəzi günbəzli məbədlər tipinə aiddir. Məbəd ərazisindən tapılmış daş sütun cütlüyündən birinin üstündə alban hərfini xatırladan işarə cızılmışdır. Təəssüf ki, həmin unikal xarakterli material aşkar olunmasından uzun illər keçməsinə baxmayaraq məbədin ərazisində baxımsız halda qalmaqdadır. Bunu Qax muzeyinə yerləşdirmək çox vacib və həlli çox asan olan məsələdir. Ləkit məbədi bərpa olunanda həmin sütunu yenidən məbəddə yerləşdirmək olar. Bəzi tədqiqatçıların (K.V.Trever, A.L.Yakobson və b.) fikrincə, Ləkit məbədi Ermənistanın Zvartnots məbədinin kiçik surətidir və hətta Ləkit məbədinin tikintisində erməni inşaatçıları yardımçı ola bilərdilər (N.M.Tokarski). Müqayisəli təhlil bu fikirləri təkzib edir. Ləkit məbədi dayaq hissələrdəki orta və kiçik ölçülü bişmiş kərpiclərin birgə tətbiqini nəzərə almaqla ən tezi VII əsrə aid edilə bilər. Abidə movakanların mədəniyyət nümunəsidir.

Kürmük məbədinin durumunda heç bir dəyişiklik baş verməmişdir. Abidədə bəzi yenidənqurma işlərinin görülməsinə ehtiyac vardır. Məsələn, məbədin damının üstündəki xaç mütləq dəyişdirilməlidir, çünki həmin xaçın forması məbədin daş divarı üzərindəki xaça heç cür uyğun gəlmir. Məbədin üstündəki metal xaç məbədin divarındakı xaç formasında olmalıdır. Məbədin daxilində bərpa işləri aparmaq zəruridir. Kiş məbədində (Şəki rayonu) olduğu kimi gələcəkdə Kürmük məbədinin içərisində də arxeoloji qazıntı işləri aparmaq və sonra burada muzey təşkil etmək lazımdır. Bu abidənin alban dövründən fəaliyyət göstərməsi və movakanların məbədi olmasının əlavə sübuta ehtiyacı yoxdur.

Məbədlərin ziyarəti ilə turun proqramında nəzərdə tutulmuş bütün tədbirlərin icrası başa çatdı. Nümayəndə heyəti Qaxı tərk edərək Bakıya qayıtdı.

***Mübariz C. Xəlilov***
AMEA Arxeologiya və Etnoqrafiya İnistitutu



Əzizəxanım Məhərrəm qızı Həsənovanın xatirəsinə
(1948-2016)

Azərbaycan arxeologiyasına ağır itki üz vermişdir. Azərbaycan arxeologiya elminin azsaylı spesifik mütəxəssislərindən biri, arxeometallurgiya üzrə uzun zaman kəsiyində ixtisaslaşmış, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Arxeoloji texnologiyalar" sektorunun aparıcı elmi işçisi, t.ü.f.d. Əzizəxanım Məhərrəm qızı Həsənova haqq dünyasına qovuşmuşdur. Əzizəxanım arxeometallurgiya sahəsində nadir mütəxəssislərdən biri olmaqla, Cənubi Qafqazda ilk və yeganə olan arxeometallurgiya laboratoriyasının yaradıcısı professor İ. Səlimxanovun məktəbini keçmiş və ondan aldığı elmi bilik, bacarıq və təcrübələri layiqlə davam etdirmişdi.

Əzizəxanım Həsənova 1948-ci ildə Bakı şəhərində anadan olumuşdu. O, ali təhsilini Bakı Dövlət Universitetində almış və kimyaçı ixtisasına yiyələnmişdir. Talehi elə gətirmişdir ki, onun əsas elmi fəaliyyəti arxeologiya elmi ilə bağlı olmuşdur. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun nəzdində olan arxeometallurgiya laboratoriyasının əsas elmi istiqaməti Azərbaycanın qədim metallurgiyası və metalişləmə sənətinin tədqiqi olduğu üçün, burada əsasən arxeoloji metal nümunələrinin analitik və spektral analizləri aparılır. Bu baxımdan laboratoriyada əsasən kimya ixtisası olan mütəxəssislərə ehtiyac vardı. Ə.Həsənova laboratoriyada işlədiyi müddətdə, Azərbaycanın müxtəlif bölgələrində aparılan arxeoloji tədqiqatlardan aşkar edilmiş, həmçinin dünyanın müxtəlif ölkələrindən göndərilmiş qədim metal nümunələrinin spektral analizlərində böyük xidmətləri olmuşdur.

Təsadüfi deyildir ki, Ə.M.Həsənovanın dissertasiya işi qədim Azərbaycanın metallurgiya probleminin tədqiqinə həsr edilmişdir. O, 1997-ci ildə "Qədim Azərbaycanda sinkin öyrənilmə və istifadə tarixi " adlı dissertasiya işini uğurla müdafiə edərək tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. Ə.M.Həsənova Azərbaycanın qədim metallurgiya probleminin tədqiqi mövzusunu davam etdirərək,

"Azərbaycanın orta tunc dövrü metallurgiyasının tədqiqi" mövzusunda doktorluq dissertasiya işi götürmüşdür. O, dissertasiya işini tamamlayaraq mütəxəssislərin müzakirəsinə təqdim etmiş və geniş müzakirədən sonra diseertasiya işində müəyyən düzəlişlərdən sonra müdafiəyə təqdim edilməsi tövsiyyə edilmişdir. Əzizəxanım Həsənova dissertasiya işi üzərində gərgin zəhmət hesabına son tamamlanma işlərin başa çatdırmış və müdafiəyə hazır vəziyyətə gətirmişdir. Təəssüflər olsun ki, amansız ölüm onun bu arzusuna çatmasına mane oldu.

Ə.M.Həsənova Almaniya, Fransa, Rusiya, Gürcüstan və s. ölkələrdə elmi ezamiyyətlərdə olmuş, arxeometallurgiya sahəsində beynəlxalq təcrübəni mənimsəmiş, xarici mütəxəssislərlə qarşılıqlı təcrübə mübadiləsi aparmışdır.

Ə.M.Həsənova dəfələrlə arxeometallurgiya problem mövzusu üzrə beynəlxalq və respublika səviyyəli konfranslarda iştirak etmiş, dəyərli elmi məruzələrlə çıxış etmişdi. Onun 7 məqaləsi beynəlxalq bazalarda raferatlaşdırılan və indeksləşdirilən jurnallarda nəşr edilmişdi.Amansız ölüm Ə.Həsənovanı növbəti beynəlxalq konfransda haqladı. Belə ki, O, Qroznı şəhərində keçirilən konfransda Azərbaycanın qədim metallurgiya problemi mövzusu üzrə uğurlu çıxış etmiş, konfrans başa çatdıqdan sonra, Azərbaycana qayıdan gün xəstələnərək Qroznı şəhərində dünyasını dəyişmişdir.

Ə.M.Həsənova tədqiqat mövzusuna uyğun olaraq 3 kitab, 70 elmi məqalə nəşr etdirmişdir.

Allah rəhmət eləsin.

***Bəxtiyar Cəlilov***
**AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu**